# DÖVLƏT İMTAHAN MƏRKƏZİ
# 2024/2025-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU ELAN EDİR

## Ərizə qəbulu

**1.** Ali təhsil müəssisələrinə qəbul olmaq hüququna tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış şəxslər malikdirlər.

Yüksək texniki peşə, orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri (buraxılış kurslarında təhsil alanlar istisna olmaqla) ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak edə bilməzlər.

Bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir. Dövlət ali təhsilin hər bir səviyyəsində təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

**2.** Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı ərizələrin qəbulu **iki mərhələdə** (yalnız V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər üçün bir mərhələdə) olmaqla internet vasitəsilə aparılır.

### *Ərizə qəbulunun 1-ci mərhələsi (bütün abituriyentlər üçün)*

Ərizə qəbulunun birinci mərhələsi **2024-cü il martın 1-dən 15-dək** həyata keçirilir. Bu mərhələdə ali təhsil və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən bütün abituriyentlər Dövlət İmtahan Mərkəzinin (bundan sonra - DİM) internet saytının ***ekabinet.dim.gov.az*** səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra, şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (***eservices.dim.gov.az/erizebak/erize***) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurur və təsdiq edirlər (etdirirlər). Müsabiqədə iştirak ödənişlidir. Abituriyentlər ərizəni təsdiq etməkdən (etdirməkdən) ötrü qəbul imtahanının I mərhələsində iştirak üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqda onların şəxsi kabinetlərindəki hesablarından çıxılır.

**Qeyd:** 2023-cü ildə qəbul imtahanının I mərhələsində (buraxılış imtahanında) iştirak etmiş abituriyent öz istəyindən asılı olaraq cari ildə keçirilən qəbul imtahanının I mərhələsində iştirak edə və ya etməyə bilər. İştirak etmədiyi halda abituriyentin qəbul imtahanının I mərhələsindəki nəticəsi kimi ötənilki imtahanın nəticəsi əsas götürülür və bu zaman həmin abituriyent üçün ərizənin təsdiqi ödənişsiz olur. Hər iki halda abituriyent müəyyən olunmuş vaxtda elektron ərizəsində müvafiq seçimi etməlidir.

Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilir. Cari ildə (və ya 2023-cü ildə) qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) iştirak etməyən abituriyent ikinci mərhələyə buraxılmır.

### *Ərizə qəbulunun 2-ci mərhələsi (I-IV ixtisas qrupları üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər üçün)*

İmtahanın ikinci mərhələsinin iki dəfə ***(1-ci cəhd və 2-ci cəhd)*** keçirilməsi nəzərdə tutulur. Bu halda abituriyentlər hər iki cəhd üzrə (hər cəhddə bir dəfə olmaqla) imtahanda iştirak edə bilərlər. Hər iki **cəhddə** iştirak edən abituriyentlər ikinci cəhddə birincidəkindən fərqli ixtisas qrupu üzrə imtahan verə bilərlər.

I-IV ixtisas qrupları üzrə qəbul imtahanının II mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyənlər **2024-cü il aprelin 15-dən mayın 6-dək** şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (***eservices.dim.gov.az/erizebak/erize***) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçirlər. Bu zaman abituriyentlər qəbul imtahanının II mərhələsində iştirak üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olunduqda onların şəxsi kabinetlərindəki hesablarından çıxılır. Qeydiyyat zamanı I və ya III ixtisas qrupunu seçən abituriyentlər öz istəklərinə əsasən təhsil almaq istədikləri ixtisas və ya ixtisaslara uyğun olan aşağıdakı seçimlərdən birini edirlər:

**I ixtisas qrupu üzrə:**
- RK;
- Rİ;
- RK və Rİ;

**III ixtisas qrupu üzrə:**
- DT;
- TC;
- DT və TC.

I ixtisas qrupunun RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər "İnformatika", III ixtisas qrupunun DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər isə "Coğrafiya" fənni üzrə imtahanda iştirak etmək üçün müvafiq qaydada əlavə ödəniş edirlər.

I-IV ixtisas qrupları üzrə qəbul imtahanının II mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat **2024-cü il mayın 31-dən iyunun 17-dək** aparılır. İmtahanın 2-ci cəhdində iştirak etmək istəyənlər şəxsi kabinetin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (***eservices.dim.gov.az/erizebak/erize***) daxil olaraq yenidən imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçir və müvafiq qaydada ödəniş edirlər. 2-ci cəhd üzrə qeydiyyat zamanı I və ya III ixtisas qrupunu seçən abituriyentlər 1-ci cəhd üzrə olduğu qaydada öz istəklərinə uyğun olaraq müvafiq ixtisas qrupu üzrə altqruplardan birini, yaxud hər ikisini seçməlidirlər.

**3.** "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" **Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının** (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında *(imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində)* iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur. Bu kateqoriyadan olan abituriyentlər I ixtisas qrupunun RK və Rİ altqruplarının hər ikisini seçdikləri halda "İnformatika", III ixtisas qrupunun DT və TC altqruplarının hər ikisini seçdikləri halda isə "Coğrafiya" fənni üzrə imtahanda iştirak etmək üçün müvafiq qaydada əlavə ödəniş edirlər.

**4.** "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" **Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.3-1.7-ci bəndlərinə əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının** (yalnız ümumi təhsil müəssisələrini bitirənlərin) qəbul imtahanında (***bütün mərhələ və cəhdlər üzrə***) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- *Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;*
- *şəhid ailəsinin üzvləri;*
- *valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;*
- *məcburi köçkün statusu olan şəxslər;*
- *I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.*

**Yuxarıda qeyd olunan kateqoriyalardan olan abituriyentlər barədə məlumat DİM tərəfindən müvafiq icra orqanlarının informasiya sistemlərindən elektron üsullarla əldə olunur.**

**5. Abituriyentlər eyni zamanda ali təhsil müəssisələrinin həm I-IV ixtisas qruplarına (hər hansı biri və yaxud ikisi üzrə) daxil olan ixtisaslar, həm V ixtisas qrupuna daxil olan ixtisaslar, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilərlər. Bunun üçün onlar sənəd qəbulu zamanı elektron ərizələrində müvafiq seçimlərini etməlidirlər.**

**6.** Ərizənin təsdiqi DİM-in informasiya sistemlərində abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla (bax: 6.1 və 6.2-ci bəndlər) həyata keçirilir (ərizənin hansı üsulla təsdiq ediləcəyi barədə məlumat proqram tərəfindən "Abituriyentin elektron ərizəsi" forması təsdiq edilənədək ərizəyə hər dəfə daxil olarkən ekranda göstərilir):

**6.1.** Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər ***(kişi cinsli abituriyentlər 7-ci bənddə göstərilən şərtləri ödədikləri halda)*** elektron ərizələrini **Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən 2-ci bənddə göstərilən müddətdə özləri təsdiq edirlər**:

- *Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;*
- *Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;*
- *Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;*
- *2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.*

**6.2.** Digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini **müvafiq SQK-larda** təsdiq etdirirlər. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10-dan 17-dək fəaliyyət göstərirlər:

*Azərbaycan Universiteti*
*(Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küç., 71.);*

*Bakı Biznes Universiteti*
*(Bakı şəhəri, Yasamal rayonu, H. Zərdabi küç., 88a.);*

*DİM-in Naxçıvan MR Regional Bölməsi*
*(Naxçıvan ş., Nizami küçəsi, 10);*

*DİM-in Gəncə Regional Bölməsi*
*(Gəncə ş., H.Əliyev meydanı, İnzibati bina);*

*DİM-in Lənkəran Regional Bölməsi*
*(Lənkəran ş., H.Aslanov xiyabanı, 52);*

*DİM-in Xaçmaz Regional Bölməsi*
*(Xaçmaz ş., M.Ə.Rəsulzadə küç., 7b);*
*DİM-in Şəki Regional Bölməsi*
*(Şəki ş., M.Rəsulzadə prospekti, 182);*
*DİM-in Şirvan Regional Bölməsi*
*(Şirvan ş., M.Rəsulzadə küçəsi, 19);*
*DİM-in Göyçay Regional Bölməsi*
*(Göyçay ş., Rauf İsayev küçəsi, 43);*
*DİM-in Bərdə Regional Bölməsi*
*(Bərdə ş., H. Əliyev prospekti, 88);*
*DİM-in Şəmkir Regional Bölməsi*
*(Şəmkir ş., Bakı - Qazax şosesi,*
*İnzibati bina –"west gate").*

**6.3. Elektron ərizələrini SQK-larda təsdiq etdirməli olan abituriyentlər elektron ərizələrini doldurduqdan sonra (elektron ərizələrinin iş nömrələrini bildirməklə) SQK-ya aşağıdakı sənədləri təqdim edirlər:**

- ***şəxsiyyətlərini təsdiq edən sənədin əslini:***
  - *Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini;*
  - *əcnəbilər icazə vəsiqələrini və (və ya) pasportlarını;*
  - *vətəndaşlığı olmayan şəxslər icazə vəsiqələrini və ya yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədlərini;*
  - *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini;*
  - *qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;*
- ***tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsil haqqında sənədin əslini***[1] *(yüksək texniki peşə, orta ixtisas və ya ali təhsil haqqında sənədin əslini təqdim edən abituriyentlər, həmçinin məzunu olduqları ümumi təhsil müəssisəsi tərəfindən verilən, müəyyən olunmuş formada attestat qiymətləri göstərilən arayışı - "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na 2 nömrəli əlavə*[2]***);***
- ***Azərbaycan Respublikasında ali təhsil müəssisələrini ödənişli əsaslarla bitirən abituriyentlər (2012-ci və ondan sonrakı illərdə ali təhsil müəssisələrini bitirənlər istisna olmaqla) dövlət hesablı yerlərin müsabiqəsində iştirak etmək üçün bitirdikləri təhsil müəssisələri tərəfindən verilən və ali təhsilinin ödənişli əsaslarla olmasını təsdiq edən arayışı*** *("Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na 3 nömrəli əlavə*[3]*);*
- ***hərbi bilet və ya çağırışçı şəhadətnaməsini;***
- ***əcnəbilər və xarici ölkələrdə təhsil almış şəxslər yuxarıda qeyd olunan sənədlərlə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini;***
- *SQK-ya təqdim olunan sənədlərdə ad, soyad və ya ata adı fərqlənərsə, abituriyent tələb olunan sənədlərlə birlikdə ad, soyad və ya ata adının dəyişdirilməsini təsdiq edən sənədi və ya sənədləri də təqdim edir.*

**Qeyd 1:** ***Abituriyentlər sənədlərin əsli ilə yanaşı onların surətlərini də SQK-ya təqdim edirlər.***

**Qeyd 2:** ***Şəxsiyyət vəsiqələrinin etibarlılıq müddəti 01 yanvar 2024-cü il tarixinə qədər bitmiş olan abituriyentlər ərizə vermək üçün yeni şəxsiyyət vəsiqəsi almalıdırlar.***

**7.** 1989-2006-cı il təvəllüdlü (01.05.2006-cı il tarixinədək anadan olmuş) 35 yaşınadək olan kişi cinsli abituriyentlərin elektron ərizələrinin təsdiqi üçün onların ya müddətli həqiqi hərbi xidmət keçməsi, ya çağırışdan möhlət hüququnun olması (təhsilə görə verilmiş möhlət istisna olmaqla), ya çağırışdan azad edilməsi və ya müddətli həqiqi hərbi xidmətə çağırılmama və ya müvəqqəti çağırılmaması barədə məlumat Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) vahid elektron informasiya sistemində əks olunmalıdır.

Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin, 30.04.2006-cı il tarixindən sonra doğulmuş əvvəlki ilin məzunu olan abituriyentlərin, 35 yaşı tamam olmuş abituriyentlərin və əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin elektron ərizələri SHXÇDX-in vahid elektron informasiya sisteminə sorğu verilmədən təsdiq edilir.

Hərbi qeydiyyatın aparılması Azərbaycan Respublikasının SHXÇDX tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

[1] Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər tam orta təhsil haqqında sənədi və ya attestat qiymətləri göstərilən arayışı təqdim etmirlər:
- Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;
- Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;
- 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib, onu təsdiq etdirmiş abituriyentlər.

[2] "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na 2 nömrəli əlavəni *eservices.dim.gov.az/erizebak/erize* internet ünvanından əldə etmək olar.

[3] "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na 3 nömrəli əlavəni *eservices.dim.gov.az/erizebak/erize* internet ünvanından əldə etmək olar.

**8. Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər** 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etməklə (etdirməklə) yanaşı, müvafiq ali təhsil müəssisələrinin müəyyən etdikləri xüsusi prosedurlardan keçməlidirlər (*bax: Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul elanları, "Abituriyent" jurnalının 2024-cü il tarixli 1-ci nömrəsi, səh. 222-239 və digər müvafiq informasiya mənbələri*).

## Xüsusi qabiliyyət imtahanlarına qeydiyyat

**9.** Xüsusi qabiliyyət tələb edən ixtisaslar (XQTİ-lər) üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini (*bax: səh. 14)* ödəyən abituriyentlər ixtisas qrupları üzrə imtahanların nəticəsi elan olunduqdan sonra DİM tərəfindən elan olunacaq müddətdə ***eservices.dim.gov.az/qabiliyyet*** internet səhifəsinə daxil olaraq seçdikləri XQTİ-nin aid olduğu komissiya üzrə qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün abituriyent tələb olunan məbləği (qeydiyyatdan keçmək istədiyi komissiyaların sayından asılı olaraq) şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

Elanın "Ərizə qəbulu" bölməsinin **3-cü bəndində** göstərilən kateqoriyadan olan abituriyentlərin cari ildə seçdikləri (qeydiyyatdan keçdikləri) **ilk komissiya** üzrə, **4-cü bəndində** göstərilən kateqoriyalardan olan abituriyentlərin isə seçdikləri (qeydiyyatdan keçdikləri) **bütün komissiyalar** üzrə qabiliyyət imtahanlarında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Qeydiyyatdan keçmiş abituriyentlər DİM tərəfindən elan olunacaq müddətdə qabiliyyət imtahanında iştirak edirlər. Qabiliyyət imtahanları DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir (*bax: "Abituriyent" jurnalının qabiliyyət imtahanları üzrə xüsusi buraxılışları*) və imtahanların nəticəsi balla və ya "məqbul/qeyri-məqbul"la qiymətləndirilir. XQTİ-ləri yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müsabiqə şərtlərini ödəyən abituriyentlər seçə bilərlər (*bax: səh. 14-də "Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri" adlı cədvəl*).

**Qeyd:** *Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərin* ***(subbakalavrların)*** *ərizə qəbulu ilə bağlı ətraflı məlumat 17-ci səhifədə təqdim olunmuşdur.*

## Ərizə qəbulu ilə bağlı xüsusi hallar

**10.** Qəbul imtahanının birinci mərhələsinin nəticəsi 2 il qüvvədə olduğuna görə 2023-cü ildə qəbul imtahanının I mərhələsində (buraxılış imtahanında) iştirak edən abituriyent cari ildə qəbul imtahanının I mərhələsində iştirak etməyə bilər. Bu zaman həmin abituriyentin qəbul imtahanının I mərhələsindəki nəticəsi kimi ötənilki imtahanın nəticəsi əsas götürülür. **Həmin abituriyent üçün ərizənin təsdiqi ödənişsiz olur.** Abituriyent cari ildə keçirilən imtahanda iştirak etmək istədiyi halda isə ərizənin müvafiq bölməsində bu istəyini qeyd edir və tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə edir. Bu halda abituriyent müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini ixtisas seçimi zamanı özü müəyyən edir.

**11. "Jurnalistika"** ixtisasına qəbul olmaq istəyən III ixtisas qrupunun DT altqrupunu seçən abituriyentlər müvafiq müsabiqə şərtlərini ödədikləri halda, III ixtisas qrupu üzrə imtahan nəticələri elan olunduqdan sonra DİM tərəfindən elan olunacaq müddətdə ***eservices.dim.gov.az/erizebak/erize*** internet səhifəsində "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçmək üçün abituriyent tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

Elanın "Ərizə qəbulu" bölməsinin **3-cü bəndində** göstərilən kateqoriyadan olan və **digər XQTİ-lər üzrə qeydiyyatdan keçməyən abituriyentlərin** cari ildə **"Jurnalistika"** ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur. Eyni bölmənin **4-cü bəndində** göstərilən kateqoriyalardan olan abituriyentlərin isə hamısının **"Jurnalistika"** ixtisası üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Qeydiyyatdan keçən abituriyentlər DİM tərəfindən elan olunacaq müddətdə qabiliyyət imtahanında iştirak edirlər. Abituriyentlər imtahanda təqdim olunan mövzu üzrə yazı işi (inşa) yerinə yetirirlər. Qabiliyyət imtahanından uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, "Jurnalistika" ixtisasını da seçə bilərlər.

**12. Dövlət Gömrük Komitəsinin Akademiyasında** təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəkləri xarici dil kimi ingilis dilini seçməlidirlər.

**Dövlət Gömrük Komitəsinin Akademiyasının tədrisi ingilis dilində olan "İnformasiya texnologiyaları" və "Beynəlxalq ticarət və logistika"** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 50-dən az olmayan abituriyentlər buraxılırlar.

**13. Milli Aviasiya Akademiyasının I qrup ixtisasları üzrə** təhsil almaq istəyən abituriyentlər ərizələrində imtahan verəcəkləri xarici dil kimi ingilis dilini seçməlidirlər.

**Milli Aviasiya Akademiyasının "Uçuş mühəndisliyi" və "Hava nəqliyyatının hərəkətinin təşkili" ixtisaslarına** 23 yaşına çatmamış abituriyentlər ərizə verə bilərlər.

**Milli Aviasiya Akademiyasının "Uçuş mühəndisliyi" və "Hava nəqliyyatının hərəkətinin təşkili"** ixtisasları üzrə təhsil almaq istəyən abituriyentlər 1-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etdikdən sonra Heydər Əliyev Beynəlxalq Aeroportunda Tibb-sanitar İdarəsinin Aviasiya Poliklinikasında Həkim-uçuş ekspert komissiyasında xüsusi tibbi və psixofizioloji müayinədən keçməli, Milli Aviasiya Akademiyasında isə "Fiziki hazırlıq" üzrə normativləri yerinə yetirməlidirlər.

Tibbi və psixofizioloji müayinənin şənbə, bazar və bayram günləri istisna olmaqla 4 mart – 3 may 2024-cü il tarixlərində hər gün saat 09:00-dan 16:00-dək keçirilməsi nəzərdə tutulmuşdur.

"Fiziki hazırlıq" üzrə qabiliyyət müsabiqəsinə yalnız xüsusi tibbi müayinəni keçmiş abituriyentlər buraxılacaqlar. Qabiliyyət müsabiqəsinin keçirilmə cədvəli, şərtləri və normativləri Milli Aviasiya Akademiyasının rəsmi internet səhifəsində elan olunacaqdır.

**14. "ADA" Universitetinin bakalavriat səviyyəsinə qəbul iki yolla aparılır:**

1) <u>DİM-in keçirdiyi qəbul imtahanlarının nəticələrinə əsasən</u>

"ADA" Universitetinin I, II və III qruplara daxil olan ixtisasları (I qrupa daxil olan kənd təsərrüfatı ixtisasları istisna olmaqla) üzrə müsabiqəyə ümumi balı 400-dən, I qrupa daxil olan kənd təsərrüfatı ixtisasları üzrə müsabiqəyə isə ümumi balı 300-dən və ikinci mərhələdə topladığı balı 100-dən az olmayan abituriyentlər buraxılırlar.

V qrupa daxil olan "Dizayn (interyer dizayn)" ixtisasını qəbul imtahanının birinci mərhələsində ən azı 180 bal toplayan abituriyentlər seçə bilərlər.

2) <u>Beynəlxalq SAT imtahanının nəticəsinə əsasən</u>

"ADA" Universitetinin ixtisaslarının müsabiqəsinə beynəlxalq SAT imtahanı üzrə ən azı 1200 bal toplayan, həmçinin ya IELTS Academic üzrə minimum 6.0, ya TOEFL IBT üzrə minimum 75 və ya Duolingo English Test üzrə minimum 105 balı olan abituriyentlər də buraxılacaqlar. İngilis dili ilə bağlı tələb Azərbaycandan kənarda yerləşən ingilis dilli məktəblərin məzunlarına və ya "ADA" Universitetinin ingilis dili kurslarının müvafiq səviyyəsini müvəffəqiyyətlə bitirmiş abituriyentlərə şamil olunmur. "Kompüter elmləri", "Kompüter mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi", "İnformasiya texnologiyaları", "Riyaziyyat", "Biznesin idarə edilməsi", "İqtisadiyyat", və "Maliyyə" ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin SAT imtahanından "Riyaziyyat" bölməsi üzrə ən azı 600 bal toplamaları tələb olunur. Qeyd olunan şərtləri ödəyən abituriyentlər müsabiqəyə buraxılmaları üçün aşağıdakı qaydada sənəd qəbulunda iştirak edirlər:

- Abituriyentlər martın 15-dək ümumi qaydada "Abituriyentin elektron ərizəsi"ni doldurur və təsdiq edirlər (etdirirlər);
- İyunun 25-dək SAT imtahanının nəticəsini elektron şəkildə "College Board"-un saytı (***https://www.collegeboard.org***) vasitəsilə DİM-ə (kod 7876) və "ADA" Universitetinə (kod 7799) göndərirlər;
- İyunun 25-dək SAT imtahanının və ingilis dili imtahanının nəticələri barədə məlumatı (skan edərək) elektron qaydada təqdim etməklə DİM-in internet saytı vasitəsilə qeydiyyatdan keçirlər;
- İyunun 25-dək "ADA" Universitetinin elektron ərizə formasını (***www.ada.edu.az/apply***) doldurur, ingilis dili imtahanının nəticəsini həmin ərizə formasına yükləyir və "ADA" Universitetinə elektron şəkildə göndərirlər.

"ADA" Universitetinə SAT imtahanlarının nəticələrinə əsasən qəbul olmaq istəyən abituriyentlərin Azərbaycan dili (dövlət dili kimi) imtahanından "məqbul" almaları, tam orta təhsil müəssisələrinin Azərbaycan bölməsini bitirən abituriyentlərin buraxılış imtahanında (qəbul imtahanının I mərhələsində) tədris dili (Azərbaycan dili) fənnindən 50 bal və yuxarı nəticə göstərməkləri tələb olunur.

"ADA" Universitetinin "Hüquqşünaslıq" ixtisasına SAT imtahanının nəticələrinə əsasən qəbul aparılmır.

3) **"ADA" Universitetinin** Nizamnaməsinə uyğun olaraq "ADA" Məktəbinin məzunlarının Məktəbin daxili imtahanlarının nəticələrinə əsasən "ADA" Universitetinə qəbulu həyata keçirilir.

**Subbakalavrların** qəbul imtahanlarında iştirak etmədən "ADA" Universitetinin ixtisaslarına müsabiqə yolu ilə qəbulu aparılmır.

**15. Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasına** qəbul olmaq istəyən abituriyentlər III ixtisas qrupunun DT altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları ən azı 150, imtahanın ikinci mərhələsində topladıqları balları isə ən azı 50 olduğu halda, imtahan nəticələri elan olunduqdan sonra DİM tərəfindən müəyyən olunacaq müddətdə ***eservices.dim.gov.az/qabiliyyet*** internet səhifəsində müvafiq bölməyə daxil olaraq qeydiyyatdan keçməlidirlər. Bunun üçün abituriyent tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

Elanın "Ərizə qəbulu" bölməsinin **3-cü bəndində** göstərilən kateqoriyadan olan və **digər XQTİ-lər üzrə qeydiyyatdan keçməyən abituriyentlərin** cari ildə Azərbaycan İlahiyyat İnstitutunun **"İslamşünaslıq" ixtisası üzrə müsahibədə** iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur. Eyni bölmənin **4-cü bəndində** göstərilən kateqoriyalardan olan abituriyentlərin isə hamısının Azərbaycan İlahiyyat İnstitutunun **"İslamşünaslıq" ixtisası üzrə müsahibədə** iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Qeydiyyatdan keçən abituriyentlər DİM tərəfindən elan olunacaq tarixlərdə Azərbaycan İlahiyyat İnstitutunda yaradılan dini-psixoloji komissiya tərəfindən aparılan müsahibədə iştirak edirlər. Müsahibənin proqramı "Abituriyent" jurnalının qabiliyyət imtahanları üzrə xüsusi buraxılışında dərc ediləcəkdir. Müsahibədən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasını da seçə bilərlər.

**16. Azərbaycan Dövlət Dəniz Akademiyasının tədrisi ingilis dilində olan "Dəniz naviqasiyası mühəndisliyi" və "Gəmi energetik qurğularının istismarı mühəndisliyi"** ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 50-dən az olmayan abituriyentlər buraxılırlar.

**17. Azərbaycan Dillər Universitetində** təhsil almaq istəyən abituriyentlərin imtahan verəcəyi xarici dil seçiminə müəyyən məhdudiyyətlər qoyulur. Aşağıdakı cədvəldə hər bir ixtisas üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin hansı xarici dildən imtahan verəcəyi göstərilir:

| **İxtisasların adları** | **Xarici dillər** |
|---|---|
| Filologiya *(Azərbaycan dili və ədəbiyyatı)*<br>Azərbaycan dili və ədəbiyyatı müəllimliyi<br>Beynəlxalq münasibətlər | xarici dil seçiminə heç bir məhdudiyyət qoyulmur |
| Xarici dil müəllimliyi *(alman dili)*<br>Dil və ədəbiyyat müəllimliyi *(alman dili və ədəbiyyatı müəllimliyi)*<br>Regionşünaslıq *(Almaniya üzrə)*<br>Filologiya *(alman dili və ədəbiyyatı)*<br>Tərcümə *(alman dili)* | alman və ya ingilis dili |
| Xarici dil müəllimliyi *(fransız dili)*<br>Dil və ədəbiyyat müəllimliyi *(fransız dili və ədəbiyyatı müəllimliyi)*<br>Regionşünaslıq *(Fransa üzrə)*<br>Filologiya *(fransız dili və ədəbiyyatı)*<br>Tərcümə *(fransız dili)* | fransız və ya ingilis dili |
| Regionşünaslıq *(ərəb ölkələri üzrə)*<br>Tərcümə *(ərəb dili)* | ərəb və ya ingilis dili |
| Xarici dil müəllimliyi *(rus dili)*<br>Filologiya *(rus dili və ədəbiyyatı)*<br>Regionşünaslıq *(Rusiya üzrə)* | rus və ya ingilis dili |
| digər ixtisaslar | ingilis dili |

**18. Lənkəran Dövlət Universitetinin "Xarici dil müəllimliyi** ***(ingilis dili üzrə)*****"** ixtisasını qəbul imtahanının birinci mərhələsində (buraxılış imtahanında) xarici dil kimi ingilis dilindən imtahan vermiş abituriyentlər seçə bilərlər.

## İmtahanların keçirilməsi

**1. Hər bir imtahanın yeri və vaxtı barədə məlumat "İmtahana buraxılış vərəqəsində" qeyd olunur və buraxılış vərəqələri imtahandan azı 5 gün əvvəl DİM-in internet saytında yerləşdirilir.**

**Qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) iştirak etməyən abituriyent (2023-cü ildə imtahanda iştirak edənlər istisna olmaqla) ikinci mərhələyə, ikinci mərhələdə iştirak etməyən abituriyent isə I-IV ixtisas qrupları üzrə ixtisas seçiminə buraxılmır.**

**Əvvəlki ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin 14 aprel 2024-cü il tarixində keçirilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər birinci mərhələ üzrə imtahan vermir və müsabiqədə buraxılış imtahanında əldə etdikləri nəticələr əsasında iştirak edirlər.**

**I-IV ixtisas qrupları üzrə qəbul imtahanının ikinci mərhələsinin iki dəfə (Birinci cəhd** – mayın 26-da II və III ixtisas qrupları, iyunun 2-də I və IV ixtisas qrupu üzrə; **İkinci cəhd** – iyulun 7-də II və III ixtisas qrupları, iyulun 14-də I və IV ixtisas qrupları üzrə) keçirilməsi nəzərdə tutulur. Abituriyentlər hər iki cəhddə iştirak edə bilərlər. Hər iki cəhddə iştirak edən abituriyent ikinci imtahanı birincidəkindən fərqli ixtisas qrupu üzrə də, eyni ixtisas qrupu üzrə də verə bilər. III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün "Coğrafiya" fənni üzrə imtahanın iyunun 9-da (1-ci cəhd) və iyulun 14-də (2-ci cəhd), I qrup üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün "İnformatika" fənni üzrə imtahanın iyunun 9-da (1-ci cəhd) və iyulun 7-də (2-ci cəhd) keçirilməsi nəzərdə tutulur.

**V ixtisas qrupu üzrə müsabiqə qəbul imtahanının birinci mərhələsinin və qabiliyyət imtahanının nəticələrinə əsasən aparılır. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirib V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər qəbul imtahanının birinci mərhələsi üzrə imtahan vermir və müsabiqədə cari ilin buraxılış imtahanındakı nəticələri əsasında iştirak edirlər.**

**2.** Qəbul imtahanının **birinci mərhələsində (cari ilin məzunları üçün** tam orta təhsil səviyyəsi üzrə **buraxılış imtahanı**) abituriyentlər təhsil almaq istədikləri tədris dilinə uyğun olaraq, Azərbaycan dili və ya rus dili, xarici dil və riyaziyyat fənlərindən qəbul imtahanı verirlər. Qəbul imtahanını Azərbaycan dilində verən abituriyentlər xarici dil kimi ingilis,

alman, fransız, rus, ərəb və ya fars dilini, qəbul imtahanını rus dilində verən abituriyentlər isə ingilis, alman və ya fransız dilini seçə bilərlər.

İmtahanda abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunur. İmtahan fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimidir:

***Xarici dil***

- Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq;
- Qapalı tipli 16 tapşırıq;
- Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq.

***Azərbaycan (rus) dili***

- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;
- Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq.

***Riyaziyyat***

- Qapalı tipli 13 tapşırıq;
- Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq;
- Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq.

Qəbul imtahanının birinci mərhələsində abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahan üzrə balların hesablanma (ümumi və fənlər üzrə) qaydası 16-cı səhifədə təqdim olunub. İmtahanın müddəti 3 saatdır.

Qəbul imtahanlarının birinci mərhələsinin (buraxılış imtahanlarının) nəticəsi 2 il qüvvədə olur. Abituriyent müvafiq illər üzrə müsabiqə şərtlərini ödədiyi halda həmin nəticə əsasında cari və növbəti tədris illərində ali təhsil müəssisələrinin V ixtisas qrupu üzrə keçirilən tələbə qəbulu müsabiqəsində iştirak edə bilər. Lakin abituriyentin I-IV ixtisas qrupları üzrə müsabiqəyə buraxılması üçün müvafiq illərdə qəbul imtahanının ikinci mərhələsində iştirakı zəruridir. Beləliklə, 2023-cü ildə qəbul imtahanının I mərhələsində (buraxılış imtahanında) iştirak edən abituriyent öz istəyindən asılı olaraq cari ildə keçirilən qəbul imtahanının I mərhələsində iştirak edə və ya etməyə bilər. İştirak etmədiyi halda abituriyentin qəbul imtahanının I mərhələsindəki nəticəsi kimi ötənilki imtahanın nəticəsi əsas götürülür. İmtahanda iştirak etdiyi halda isə müsabiqəyə hansı imtahanın nəticəsi ilə qatılacağını ixtisas seçimi zamanı özü müəyyən edir. 2023-cü ildəki qəbul imtahanının I mərhələsinin (buraxılış imtahanının) nəticəsinə əsasən cari ildə ali təhsil müəssisələrinə qəbul üçün müsabiqədə iştirak etmək istəyənlər elanın "Ərizə qəbulu" bölməsinin 2-ci bəndində göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq etməlidirlər (etdirməlidirlər).

XQTİ-lərin müsabiqəsində iştirak etmək üçün tələb olunan qabiliyyət imtahanının nəticəsi yalnız abituriyentin imtahan verdiyi il qüvvədə olduğu üçün, XQTİ-lərə qəbul olmaq istəyən abituriyentlər cari ildə keçirilən müvafiq qabiliyyət imtahanlarında iştirak etməlidirlər.

Qəbul imtahanının **ikinci mərhələsində** (I-IV ixtisas qrupları, o cümlədən I ixtisas qrupunun RK və Rİ altqrupları, III ixtisas qrupunun DT və TC altqrupları üzrə) abituriyentlər ixtisas qrupları və altqrupları üzrə 3 fəndən imtahan verirlər. Hər bir fəndən 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tiplidir. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tapşırıqlarıdır. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn, mənbə əsasında və digər formalarda hazırlanan tapşırıqlardır. Bu tapşırıqlar I ixtisas qrupunda riyaziyyat, fizika, kimya və informatika fənləri üzrə cavabı yazı ilə ifadə olunan açıq tipli, II ixtisas qrupunda riyaziyyat, coğrafiya fənləri üzrə situasiya, tarix fənni üzrə isə mənbə, III ixtisas qrupunda Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, coğrafiya fənni üzrə situasiya, tarix fənni üzrə isə mənbə, IV ixtisas qrupunda biologiya, fizika və kimya fənləri üzrə situasiya əsasında hazırlanır. İxtisas qrupları və altqrupları üzrə imtahan fənləri aşağıdakılardır:

| | | |
|---|---|---|
| **I** ixtisas qrupu | | |
| **RK** altqrupu | - | riyaziyyat, fizika, kimya; |
| **Rİ** altqrupu | - | riyaziyyat, fizika, informatika; |
| **II** ixtisas qrupu | - | riyaziyyat, coğrafiya, tarix; |
| **III** ixtisas qrupu | | |
| **DT** altqrupu | - | qəbul imtahanı dilinə uyğun olaraq Azərbaycan və ya rus dili, tarix, ədəbiyyat; |
| **TC** altqrupu | - | qəbul imtahanı dilinə uyğun olaraq Azərbaycan və ya rus dili, tarix, coğrafiya; |
| **IV** ixtisas qrupu | - | biologiya, kimya, fizika. |

I ixtisas qrupu üzrə riyaziyyat-kimya (RK) altqrupuna daxil olan ixtisasların müsabiqəsi ilə yanaşı, riyaziyyat-informatika (Rİ) altqrupuna daxil olan ixtisasların müsabiqəsində də iştirak etmək istəyən abituriyentlər ödəniş etməklə əlavə olaraq **informatika fənnindən imtahan** verirlər. Eyni şəkildə, III ixtisas qrupu üzrə dil-tarix (DT) altqrupuna daxil olan ixtisasların müsabiqəsi ilə yanaşı, tarix-coğrafiya (TC) altqrupuna daxil olan ixtisasların müsabiqəsində də iştirak etmək istəyən abituriyentlər ödəniş etməklə əlavə olaraq **coğrafiya fənnindən imtahan** verirlər.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərin toplaya biləcəyi maksimal ümumi bal 400-dür (jurnalın 16-cı səhifəsində balların hesablanma qaydası təqdim olunub). Test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılır.

**3.** İmtahanlarda iştirak etmək üçün abituriyent müəyyən olunmuş tarixlərdə internetdən hər bir imtahan üçün ayrıca "İmtahana buraxılış vərəqəsi"ni çap edir.

**Abituriyent imtahana gələrkən aşağıdakı sənədləri özü ilə mütləq gətirməlidir:**

- ***İmtahana buraxılış vərəqəsini;***
- ***Şəxsiyyətini təsdiq edən sənədin əslini (şəxsi kabinetdə qeyd olunan sənəd olmalıdır),*** *("Şəxsi kabinet" yaratdıqdan sonra hər hansı bir səbəbdən şəxsiyyəti təsdiq edən sənədini dəyişən şəxs öz şəxsi kabinetinə daxil olub sənədini yeniləməlidir. Bu vaxta kimi buraxılış vərəqəsini çap edibsə, sənədi yenilədikdən sonra onu yenidən çap etməli və imtahana yeni buraxılış vərəqəsini aparmalıdır):*
  - *Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini;*
  - *əcnəbilər icazə vəsiqələrini və (və ya) pasportlarını;*
  - *vətəndaşlığı olmayan şəxslər icazə vəsiqələrini və ya yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədlərini;*
  - *Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini;*
  - *qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini.*
- **Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şəxslər digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş fotoşəkilli (fotoşəkil son 3 ayda çəkilmiş olmalıdır, fotoşəklin üzərinə təhsil müəssisəsinin möhürü vurulmalıdır) arayışı (Əlavə 1).**

**4.** Əlilliyi olan abituriyentlər üçün imtahan zamanı əlverişli şərait yaradılır. Bu abituriyentlər imtahana ən azı 14 gün qalmış əlilliyi təsdiq edən sənədlərin əslini DİM-ə və ya onun regional bölmələrinə təqdim etməli, və ya sənədlərin skan olunmuş surətini onlayn qaydada Mərkəzin elektron poçtuna göndərməlidirlər.

**5.** Abituriyentlər müəyyən olunmuş müddətdə imtahan nəticələri ilə əlaqədar elektron ərizə dolduraraq qeydiyyatdan keçməklə DİM tərəfindən yaradılan Apellyasiya Komissiyasına müraciət edə bilərlər. Apellyasiya Komissiyası onlayn şəkildə fəaliyyət göstərir. Abituriyentlər qeydiyyatdan keçərkən hansı şəkildə (videobağlantı proqramı və ya telefon əlaqəsi vasitəsilə) apellyasiya prosesində iştirak edəcəklərini bildirirlər.

**6.** Qəbul kampaniyası dövründə abituriyentin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

- saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;
- imtahana mobil telefon və digər rabitə vasitələri, xarici yaddaş qurğusu, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və onlardan istifadə etmək;
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə tütün məmulatı gətirmək;
- səbəbindən asılı olmayaraq, imtahan zalında yerini dəyişmək, gəzişmək, yerindən durmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq, "İmtahan başlandı!" elan olunan andan 2 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində zaldan çıxmaq;
- başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına (vərəqinə), sual kitabçasına baxmaq və ya öz cavab kartına (vərəqinə), sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;
- nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;
- cavab kartını (vərəqini) və sual kitabçasını zədələmək, onları nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

Yuxarıda göstərilən hərəkətlərə yol verməsi halları DİM tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

## Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan

**7. Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər** "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən, Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verirlər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir. Bu imtahanda abituriyentlərə fənn kurikulumu əsasında hazırlanmış 27-si qapalı tipli və 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli olmaqla, ümumilikdə 30 test tapşırığı təqdim edilir. Tapşırıqların yerinə yetirilməsinə 1 saat 30 dəqiqə vaxt ayrılır. Qapalı tipli tapşırıqlar üzrə hər düzgün cavab 1 balla qiymətləndirilir. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar isə markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilir. Səhv cavablar yekun bala təsir göstərmir. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır. İmtahan üzrə tapşırıqların strukturu aşağıdakı kimidir:

- Dinləyib-anlamaya dair mətn və mətnə aid 4 tapşırıq: qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq;
- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq ;
- Oxuyub-anlamaya dair 2 mətn (bədii və publisistik üslubda) və hər mətnə aid 8 tapşırıq (cəmi 16 tapşırıq): qapalı tipli 7 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq.

İmtahanda iştirak ödənişlidir. Elanın "Ərizə qəbulu" bölməsinin **3-cü bəndində** göstərilən kateqoriyadan olan abituriyentlərin **bir cəhd** üzrə, **4-cü bəndində** göstərilən kateqoriyalardan olan abituriyentlərin isə **bütün cəhdlər üzrə** *(birdən çox cəhd olduğu halda)* Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

**Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri** Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülür və "məqbul" almış hesab olunurlar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunurlar. Bu abituriyentlər "məqbul" almaq üçün **qəbul imtahanı çərçivəsində** Azərbaycan dili (dövlət dili kimi) fənnindən yenidən imtahan verə bilərlər.

**Azərbaycan dili (dövlət dili kimi) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər ali təhsil müəssisələrinə qəbul üçün keçirilən müsabiqəyə buraxılmırlar.**

Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə imtahanın nəticələri iki il qüvvədə olduğundan, **2023-cü ildə bu imtahandan "məqbul" alan abituriyentlər** cari ildə bu imtahanda iştirak etmirlər.

## Tədris dili və xarici dil imtahanları ilə bağlı xüsusi hallar

**8.** Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən və qəbul imtahanının I mərhələsinin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülən abituriyentlər aşağıdakı hallarda **qəbul imtahanının I mərhələsi üzrə** 14 aprel 2024-cü il tarixində əlavə olaraq bəzi fənn və yaxud fənlərdən imtahan verirlər. Bu zaman onlar hər əlavə imtahan üçün ödəniş edirlər. Bunun üçün abituriyent tələb olunan məbləği şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

- **Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin məzunları** ali təhsil müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan verirlər (riyaziyyat, xarici dil və Azərbaycan dili (dövlət dili kimi) fənlərindən əlavə Azərbaycan (rus) dili fənni).
- **Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər** ali təhsil müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən imtahan verirlər (Azərbaycan dili, riyaziyyat və xarici dil fənlərindən əlavə rus dili fənni). **Tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə** ali təhsil müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan verirlər (rus dili, riyaziyyat, xarici dil və Azərbaycan dili (dövlət dili kimi) fənlərindən əlavə Azərbaycan dili fənni). Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçirlər.
- **Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar** müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan verirlər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçirlər.

## Müsabiqənin keçirilməsi

**1.** Abituriyentlərin qəbul imtahanının mərhələləri üzrə topladıqları ballar elan olunduqdan sonra ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar üzrə internet vasitəsilə ixtisas seçimi aparılır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nin 2.1.3-cü bəndinə uyğun olaraq, müsabiqə şərtləri DİM tərəfindən Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla müəyyən edilir.

Ali təhsil müəssisələrinin I-IV ixtisas qruplarına daxil olan ixtisasları üzrə müsabiqə abituriyentin qəbul imtahanında (**hər iki mərhələ üzrə birlikdə**) topladığı **ümumi bal** əsasında aparılır.

Cari ildə **I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanının ikinci mərhələsində iki müxtəlif ixtisas qrupu üzrə imtahan verən** abituriyent müvafiq müsabiqə şərtlərini ödədiyi halda, hər iki ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilər. Həmçinin I ixtisas qrupunun müxtəlif altqrupları üzrə **imtahan verən** abituriyent müvafiq müsabiqə şərtlərini ödədiyi halda, hər iki altqrup üzrə müsabiqədə iştirak edə bilər. Eyni şəkildə, III ixtisas qrupunun müxtəlif altqrupları üzrə **imtahan verən** abituriyent müvafiq müsabiqə şərtlərini ödədiyi halda, hər iki altqrup üzrə müsabiqədə iştirak edə bilər.

Müsabiqədə iştirak etmək üçün abituriyentlərin nəticələri aşağıdakı tələbləri ödəməlidir:

**I ixtisas qrupu üzrə:**

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **"Riyaziyyat", "Fizika" və "Kompüter elmləri"** ixtisasları üzrə müsabiqəyə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır;
- **Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Meliorasiya mühəndisliyi;
  - Texnologiya müəllimliyi;
  - Ekologiya mühəndisliyi.
- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər:
  - Aqromühəndislik;
  - Aqronomluq;
  - Balıqçılıq;
  - Meşəçilik;
  - Şərabçılıq;
  - Torpaqşünaslıq və aqrokimya;
  - Yerquruluşu və daşınmaz əmlakın kadastrı;
  - Zoomühəndislik.

**II ixtisas qrupu üzrə:**

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Marketinq;
  - Biznesin idarə edilməsi;
  - Turizm bələdçiliyi;
  - Turizm işinin təşkili.

**III ixtisas qrupu üzrə:**

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

- **Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) “Tərcümə (dillər üzrə)”, “Filologiya (xarici dil və ədəbiyyatı üzrə)” və “Xarici dil müəllimliyi (dillər üzrə)” ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- **Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) “Beynəlxalq münasibətlər” ixtisasının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) xarici dil fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisaslar üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Muzey, arxiv işi və abidələrin qorunması;
  - Sosial iş;
  - Regionşünaslıq (regionlar üzrə).

**IV ixtisas qrupu üzrə:**

Müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:

- **Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının** müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;
- Aşağıda qeyd olunan ixtisas üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılır:
  - Ekologiya.
- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak edə bilərlər:
  - Bağçılıq və tərəvəzçilik;
  - Baytarlıq təbabəti;
  - Bitki mühafizəsi;
  - Su bioehtiyatları və akvakultura.

**V ixtisas qrupu üzrə:**

Qabiliyyət imtahanlarının nəticələri **balla qiymətləndirilən** XQTİ-lər üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri **məqbulla qiymətləndirilən** XQTİ-lər üzrə müsabiqə isə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır. Müsabiqə şərtləri **“Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri”** adlı cədvəldə verilmişdir (bax: səh. 14).

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlər, ilk növbədə həmin ali təhsil müəssisələrinin müvafiq ixtisasları üzrə müsabiqədə iştirak edirlər. Abituriyent yalnız bir xüsusi təyinatlı ali təhsil müəssisəsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər. Bu müəssisəyə müsabiqədən keçməyən abituriyentlərə həmin ixtisas qrupuna daxil olan digər ixtisaslar üzrə keçirilən müsabiqədə ümumi qaydada iştirak etmək imkanı verilir.

**2.** Ali təhsil müəssisələrinin I-IV ixtisas qruplarına daxil olan ixtisasları üzrə müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *təhsil haqqında sənədə (attestata) “Tədris dili”, “Ədəbiyyat”, “Xarici dil”, “Riyaziyyat”, “Azərbaycan tarixi”, “Ümumi tarix”, “Fizika”, “Kimya”, “Biologiya”, “Coğrafiya” fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanının yekun nəticəsi (bal)*[4]*;*
– *qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi bal;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənləri üzrə nisbi balların cəmi;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənləri üzrə düzgün cavabların (yazılı suallar üzrə balların*[5]*) sayı;*
– *qəbul imtahanının ikinci mərhələsinin imtahan fənlərinin üstünlük dərəcəsini*[6] *nəzərə almaqla, həmin fənlərdən ayrılıqda toplanılan nisbi balların miqdarı;*
– *qəbul imtahanının birinci mərhələsi üzrə Azərbaycan və ya rus dili fənnindən toplanılan bal;*
– *qəbul imtahanının birinci mərhələsi üzrə riyaziyyat fənnindən toplanılan bal.*

---

4 Bu bənd yalnız I ixtisas qrupunun “Memarlıq” ixtisası üzrə müsabiqə zamanı nəzərə alınır.

5 Yazılı suallar üzrə ballar dedikdə, əmsala vurulmuş ballar nəzərdə tutulur (0, $\frac{2}{3}$, 1, $\frac{4}{3}$ və ya 2 bal).

6 İmtahan fənlərinin üstünlük dərəcələri jurnalın 16-cı səhifəsində “İmtahan fənlərinin ixtisas qrupları üzrə çəki əmsalları və üstünlük dərəcələri” adlı cədvəldə təqdim olunmuşdur.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisasları üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun bal əsasında aparılır. Yekun balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *abituriyentin qəbul (müvafiq ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi bal;*
– *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *riyaziyyat fənni üzrə imtahan balı;*
– *Azərbaycan dili və ya rus dili fənni üzrə üzrə imtahan balı.*

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri "məqbul"la qiymətləndirilən ixtisasları üzrə müsabiqə abituriyentin qəbul (müvafiq ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır. Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

– *təhsil haqqında sənədə (attestata) "Tədris dili", "Ədəbiyyat", "Xarici dil", "Riyaziyyat", "Azərbaycan tarixi", "Ümumi tarix", "Fizika", "Kimya", "Biologiya", "Coğrafiya" fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası;*
– *riyaziyyat fənni üzrə imtahan balı;*
– *Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.*

Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

## Müsabiqənin keçirilməsi ilə bağlı xüsusi hallar

**3. Azərbaycan İlahiyyat İnstitutunun "Dinşünaslıq" ixtisasının** müsabiqəsinə III ixtisas qrupunun DT altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən və imtahanın ikinci mərhələsində topladıqları balları 50-dən az olmayan abituriyentlər buraxılırlar.

**Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasının** müsabiqəsində III ixtisas qrupunun DT altqrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən, imtahanın ikinci mərhələsində topladıqları balları 50-dən az olmayan və bu təhsil müəssisəsində yaradılan dini-psixoloji komissiya tərəfindən aparılan müsahibədən müvəffəqiyyətlə keçən abituriyentlər iştirak edə bilərlər.

**4. Azərbaycan Dövlət Aqrar Universitetinin "Meliorasiya mühəndisliyi" ixtisası üzrə** həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsinə I ixtisas qrupu üzrə qəbul imtahanında topladıqları ümumi balları 150-dən və imtahanın ikinci mərhələsində topladıqları balları 50-dən az olmayan abituriyentlər buraxılırlar.

**5.** Ali təhsil müəssisələrinə qəbul üzrə müsabiqənin nəticələri (həmçinin boş qalan yerlər üzrə) elan olunduqdan sonra, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müəyyən etdiyi ali təhsil müəssisələri və ixtisaslar üzrə bakalavriat səviyyəsində hazırlıq qruplarının yerləri elan edilir. Bundan sonra ali təhsil müəssisələrinə qəbul olmayan və DİM tərəfindən müəyyən olunan müsabiqə şərtlərini[7] ödəyən abituriyentlər həmin yerlər üzrə ixtisas seçimində iştirak edirlər. İxtisas seçimində iştirak edən abituriyentlərin hazırlıq qruplarının yerləri üzrə yerləşdirilməsi DİM tərəfindən müsabiqə yolu ilə həyata keçirilir. Hazırlıq qruplarında tədrisin sonunda DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"nda nəzərdə tutulmuş qəbul imtahanlarına uyğun olaraq buraxılış imtahanları keçirilir və buraxılış imtahanları nəticəsində müvəffəqiyyət[8] qazanan tələbələr ali təhsil müəssisələrinin birinci kursuna qəbul olunurlar.

**6.** Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- *Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;*
- *IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;*
- *Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.*

Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibi isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

[7] Müsabiqənin şərtləri Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunacaqdır.

[8] Hazırlıq qruplarının buraxılış imtahanının nəticəsinə qoyulan tələblər Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunacaqdır.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri DİM tərəfindən elan olunacaq müddətdə aşağıda göstərilən sənədləri Dövlət İmtahan Mərkəzinə *(Ünvan: Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299)* və ya onun regional bölmələrinə (Naxçıvan, Gəncə, Xaçmaz, Lənkəran, Şəki, Göyçay, Şirvan, Bərdə, Şəmkir) təqdim etməlidirlər:

- *Ümumi qaydada və müddətdə təsdiq olunmuş "Abituriyentin elektron ərizəsi" formasının surəti;*
- *Beynəlxalq fənn olimpiadasının, yaxud respublika fənn olimpiadasının, beynəlxalq müsabiqənin və ya yarışın qalibi olduğunu təsdiq edən sənədin əsli;*
- *Beynəlxalq fənn olimpiadasının, beynəlxalq müsabiqə və yarışın qalibi olan Azərbaycan Respublikasının vətəndaşı yuxarıda qeyd olunan sənədlərin əsli ilə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini.*

Sənədlər təqdim olunduqdan sonra onların həqiqiliyi və təqdim edən şəxslərə məxsus olması DİM tərəfindən araşdırılır və araşdırmaların nəticələri barədə abituriyentlərə məlumat verilir.

Sənədlərinin həqiqiliyi və onlara məxsus olması təsdiqlənən şəxslər DİM tərəfindən elan olunacaq müddətdə şəxsən DİM-ə və ya onun regional bölmələrinə müraciət edərək qəbul olmaq istədikləri ixtisasın kodunu yazılı şəkildə bildirməlidirlər.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olmaq istəyənlər yuxarıda göstərilən sənədlərlə yanaşı, həmin təhsil müəssisəsində yaradılmış Sənəd Qəbulu Komissiyasına sağlamlıq və fiziki vəziyyətləri haqqında arayış, tərcümeyi-hal və həmin təhsil müəssisəsinin Nizamnaməsində nəzərdə tutulmuş digər məlumatları təqdim edirlər.

**7.** Beynəlxalq səviyyədə akkreditasiya olunan aşağıdakı təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər:

- *Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme);*
- *Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education);*
- *Yüksək yerləşdirmə (Advanced Placement).*

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq imkanına yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər malikdirlər.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq istəyən yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlər DİM tərəfindən elan olunacaq müddətdə aşağıdakı sənədləri Dövlət İmtahan Mərkəzinə *(Ünvan: Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299)* və ya onun regional bölmələrindən birinə təqdim etməlidirlər:

- *Ümumi qaydada və müddətdə təsdiq olunmuş "Abituriyentin elektron ərizəsi" nin surəti;*
- *Müvafiq proqram üzrə əldə olunmuş təhsil sənədinin əslini və surətini, həmçinin həmin sənədin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini.*

Abituriyentlər beynəlxalq diplom üzrə nəticələrini (qiymətlərini) elektron formada da DİM-ə təqdim edirlər. Bunun üçün onlar sənədi verən beynəlxalq qurumun rəsmi saytında öz şəxsi hesabı və ya bitirdiyi məktəbin nümayəndəsinin hesabı vasitəsilə müvafiq bölməyə DİM-in institusional kodunu daxil etməklə nəticələrinin DİM-ə göndərilməsini təmin edirlər.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq üçün sənədlərini təqdim edən abituriyent DİM tərəfindən elan olunacaq müddətdə şəxsən DİM-ə və ya onun regional bölmələrinə müraciət edərək qəbul olmaq istədiyi ixtisasın kodunu yazılı şəkildə bildirməlidir. Abituriyentlər yalnız yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçə bilərlər.

Ali təhsil müəssisələrinə **müsabiqədənkənar qəbul üçün minimal bal (və ya qiymət) tələbləri** təhsil proqramları üzrə aşağıda təqdim olunmuşdur:

- **Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme);**
  - *Ödənişli əsaslarla qəbul üçün* **- 25**
    *("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə - **30**)*
  - *Dövlət sifarişi əsasında qəbul üçün* **- 35**
- **Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə) (Advanced Level of General Certificate of Education);**
  - *Ödənişli əsaslarla qəbul üçün* **- C**
  - *Dövlət sifarişi əsasında qəbul üçün* **- B**
- **Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə) (Advanced Placement).**
  - *Ödənişli əsaslarla qəbul üçün* **- 3**
  - *Dövlət sifarişi əsasında qəbul üçün* **- 4**

**Qeyd:** *"Müvafiq üç imtahan fənni" dedikdə **I ixtisas qrupunun RK altqrupu** üzrə riyaziyyat, fizika və kimya fənləri, **I ixtisas qrupunun Rİ altqrupu** üzrə riyaziyyat, fizika və informatika fənləri, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupunun DT altqrupu** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **III ixtisas qrupunun TC altqrupu** üzrə Azərbaycan dili və ya rus dili, tarix və coğrafiya fənləri, IV ixtisas qrupu üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.*

# Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

| İxtisasın adı | Minimal bal | II mərhələ üzrə minimal bal | Qabiliyyət imtahanının yekun nəticəsi |
|---|---|---|---|
| **I ixtisas qrupu** *(RK altqrupu)* | | | |
| Memarlıq | 200 | - | məqbul (6 bal) |
| **III ixtisas qrupu** *(DT altqrupu)* | | | |
| İslamşünaslıq | 150 | 50 | məqbul |
| Jurnalistika | 200 | 100 | məqbul (5 bal) |
| **V ixtisas qrupu** | | | |
| Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi<br>Musiqi müəllimliyi<br>Təsviri incəsənət müəllimliyi<br>Adaptiv bədən tərbiyəsi<br>Kütləvi sağlamlaşdırıcı idman<br>Ümumi fiziki hazırlıq | 60 | - | məqbul (6 bal) |
| Rejissorluq | 120 | - | 6 (bal) |
| Məşqçilik (sahələr üzrə)<br>Dizayn (sahələr üzrə)<br>Dekorativ-tətbiqi sənət (sahələr üzrə)<br>İnstrumental ifaçılıq (sahələr üzrə)<br>Vokal sənəti (sahələr üzrə)<br>Dirijorluq (sahələr üzrə)<br>Bəstəkarlıq<br>Musiqişünaslıq<br>Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə)<br>Aktyor sənəti<br>Operator sənəti<br>Rəngkarlıq<br>Qrafika<br>Heykəltəraşlıq | 60 | - | 6 (bal) |
| Xoreoqrafiya sənəti (sahələr üzrə) | 30 | - | 6 (bal) |

**Qeyd:** Ali təhsil müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanları haqqında ətraflı məlumat "Abituriyent" jurnalının qabiliyyət imtahanları üzrə xüsusi buraxılışında nəşr edilir. Burada XQTİ-lərin yığcam xarakteristikası, bu ixtisaslar üzrə müsabiqə şərtləri və kadr hazırlığının hansı ali təhsil müəssisələrində aparılması haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar və şəkillər öz əksini tapır.

# Balların hesablanma qaydası

### I-IV ixtisas qrupları üzrə

Qəbul qaydalarına əsasən, **I-IV ixtisas qrupları (altqrupları) üzrə** ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarətdir. Abituriyentlər **qəbul imtahanının birinci** *(maksimal toplanıla bilən bal – 300)* **və ikinci** *(maksimal toplanıla bilən bal – 400)* **mərhələlərindən** topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak edirlər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülür.

### Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası

Qəbul imtahanının birinci mərhələsində şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə 85 tapşırıq təqdim edilir. İmtahanın müddəti 3 saatdır.

| Fənnin adı | Tapşırıqların sayı | Nisbi balın hesablanması düsturu |
|---|---|---|
| Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili) | - Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq:qapalı tipli 3 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq;<br>- Qapalı tipli 16 tapşırıq;<br>- Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq.<br>**Cəmi: 30 tapşırıq** | $\frac{100}{37}\cdot(2n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})})$<br>**Maksimal bal: 100** |
| Azərbaycan (rus) dili | - Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;<br>- Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq:qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq (cəmi 20 tapşırıq);<br>**Cəmi: 30 tapşırıq** | $\frac{5}{2}\cdot(2n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{qapalı})})$<br>**Maksimal bal: 100** |
| Riyaziyyat | - Qapalı tipli 13 tapşırıq;<br>- Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq;<br>- Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq.<br>**Cəmi: 25 tapşırıq** | $\frac{25}{8}\cdot(2n_{d(\text{açıq, yazılı})}+n_{d(\text{açıq, kod})}+ +n_{d(\text{qapalı})})$<br>**Maksimal bal: 100** |

**Birinci mərhələ üzrə toplanıla bilən maksimal ümumi bal: 300**

Qeyd. 1. $n_{d(\text{açıq, kod})}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(\text{qapalı})}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(\text{açıq, yazılı})}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.
2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.
3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında $0, \frac{1}{3}, \frac{1}{2}, \frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilərlər.

Abituriyentin **qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı** hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənir. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablanır və 0.1-ə qədər yuvarlaqlaşdırılır. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

## Qəbul imtahanının ikinci mərhələsi üzrə imtahan fənləri, ixtisas qrupları (altqrupları) üzrə fənlərin çəki əmsalları, tapşırıqların sayı və balların hesablanma qaydası

Abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tiplidir. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tapşırıqlarıdır. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn, mənbə əsasında və digər formalarda hazırlanan tapşırıqlardır. Bu tapşırıqlar biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə mənbə, II ixtisas qrupunda riyaziyyat, IV ixtisas qrupunda isə fizika və kimya fənləri üzrə situasiya əsasında hazırlanır.

İmtahanın müddəti 3 saatdır.

Abituriyentin **qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı** hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir.

Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablanır və 0.1-ə qədər yuvarlaqlaşdırılır:

***İmtahan fənni üzrə nisbi bal:*** $NB = NB_q + NB_a$,

*burada* ***NB*** *– fənn üzrə nisbi bal;*
$NB_q$ *– qapalı tipli tapşırıqlar üzrə nisbi bal;*
$NB_a$ *– açıq tipli tapşırıqlar üzrə nisbi baldır.*

***Qapalı tipli tapşırıqlar üzrə nisbi bal:*** $$NB_q = \left(D_q - \frac{1}{4}Y_q\right)\cdot\frac{100}{33}$$

(hesablamanın nəticəsi mənfi alınarsa, $NB_q=0$ götürülür),

*burada* $D_q$ *– qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı;*
$Y_q$ *– qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.*

***Açıq tipli tapşırıqlar üzrə nisbi bal:*** $$NB_a = (D_{kod} + 2D_{yazılı})\cdot\frac{100}{33}$$

*burada* $D_{kod}$ *– cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı;*
$D_{yazılı}$ *– yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn və mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında* 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ *və ya* 1 *balla qiymətləndirilir.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

## İmtahan fənlərinin ixtisas qrupları (altqrupları) üzrə çəki əmsalları və üstünlük dərəcələri

| I qrup RK altqrupu | I qrup Rİ altqrupu | II qrup | III qrup DT altqrupu | III qrup TC altqrupu | IV qrup |
|---|---|---|---|---|---|
| Riyaziyyat – 1,5 (1) | Riyaziyyat – 1,5 (1) | Riyaziyyat – 1,5 (1) | Azərbaycan (rus) dili – 1,5 (1) | Azərbaycan (rus) dili – 1,5 (1) | Biologiya – 1,5 (1) |
| Fizika – 1,5 (2) | Fizika – 1,5 (2) | Coğrafiya – 1,5 (2) | Tarix – 1,5 (2) | Tarix – 1,5 (2) | Kimya – 1,5 (2) |
| Kimya – 1 (3) | İnformatika – 1 (3) | Tarix – 1 (3) | Ədəbiyyat – 1 (3) | Coğrafiya – 1 (3) | Fizika – 1 (3) |

**Qeyd:** Cədvəldə mötərizədə göstərilmiş rəqəm fənnin üstünlük dərəcəsini göstərir.

**İkinci mərhələ üzrə toplanıla bilən maksimal ümumi bal: 400**

### V ixtisas qrupu üzrə

**V ixtisas qrupu** (ali təhsil müəssisələrinin XQTİ-ləri) və orta ixtisas təhsili müəssisələri üzrə müsabiqə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) və qabiliyyət imtahanının nəticələrinə əsasən aparılacaq.

Ali təhsil müəssisələrinin ixtisaslarının qruplar üzrə siyahısı "Abituriyent" jurnalının 2024-cü il 1-ci nömrəsinin 8-9-cu səhifələrində və DİM-in eservices.dim.gov.az/erizebak/erize internet ünvanında verilmişdir.

# SUBBAKALAVRLARIN NƏZƏRİNƏ

## Ərizə qəbulu

**1.** Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (bundan sonra - **subbakalavrlar**) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malikdirlər.

Ali, orta ixtisas və yüksək texniki peşə təhsili müəssisələrinin tələbələri (buraxılış kurslarında təhsil alanlar istisna olmaqla) ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak edə bilməzlər.

Bakalavriat səviyyəsində təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ödənişli əsaslarla həyata keçirilir. Dövlət ali təhsilin hər bir səviyyəsində təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

**2.** Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu DİM tərəfindən elan olunacaq müddətdə internet vasitəsilə aparılır. Subbakalavrlar Dövlət İmtahan Mərkəzinin internet saytının ***ekabinet.dim.gov.az*** səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (***eservices.dim.gov.az/erizebak/subbak/subbak.aspx)*** daxil olub, "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər. Subbakalavra aid təhsil məlumatları "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən avtomatik əldə olunur. Bu məlumatları tam olmayan subbakalavrlar ilk olaraq məzunu olduqları orta ixtisas təhsili müəssisələrinə müraciət etməli və məlumatlarının sistemə daxil olunmasını təmin etməlidirlər. DİM tərəfindən elan olunacaq müddətdə ərizəsini təsdiq etməyən subbakalavrlar müsabiqəyə buraxılmayacaqlar. Müsabiqədə iştirak ödənişsizdir.

**3.** Bitirdikləri ixtisasa müvafiq **xüsusi qabiliyyət tələb edən ixtisaslar (XQTİ-lər)** üzrə ali təhsil almaq istəyən subbakalavrlar yuxarıda qeyd olunanlarla yanaşı, təhsil almaq istədikləri ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçirlər. Qeydiyyat (ixtisas qrupları üzrə) DİM tərəfindən elan olunacaq müddətdə ***eservices.dim.gov.az/qabiliyyet*** internet səhifəsində aparılır. Qabiliyyət imtahanlarında iştirak ödənişlidir. Qeydiyyatdan keçmək üçün subbakalavr şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməli və tələb olunan məbləği (qeydiyyatdan keçmək istədiyi komissiyaların sayından asılı olaraq) şəxsi kabinetindəki hesabına əlavə etməlidir.

Qeydiyyatdan keçmiş subbakalavrlar müəyyən edilmiş cədvəl üzrə DİM tərəfindən elan olunacaq müddətdə qabiliyyət imtahanında iştirak edirlər. Qabiliyyət imtahanları DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir (*bax:* "Abituriyent" jurnalının qabiliyyət imtahanları üzrə xüsusi buraxılışları) və imtahanların nəticəsi balla və ya "məqbul/qeyri-məqbul"la qiymətləndirilir. **XQTİ-ləri** yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müsabiqə şərtlərini ödəyən (*bax: səh. 14 "Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri" adlı cədvəl*) subbakalavrlar seçə bilərlər.

**4.** 1989-2006-cı il təvəllüdlü (01.05.2006-cı il tarixinədək anadan olmuş) 35 yaşınadək olan kişi cinsli **subbakalavrların** elektron ərizələrinin təsdiqi üçün onların ya <u>müddətli həqiqi hərbi xidmət keçməsi</u>, ya <u>çağırışdan möhlət hüququnun olması</u>, ya <u>çağırışdan azad edilməsi</u> və ya <u>müddətli həqiqi hərbi xidmətə çağırılmama və ya müvəqqəti çağırılmaması</u> barədə məlumat Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) vahid elektron informasiya sistemində əks olunmalıdır.

30.04.2006-cı il tarixindən sonra doğulmuş və ya 35 yaşı tamam olmuş **subbakalavrların** elektron ərizələri SHXÇDX-in vahid elektron informasiya sisteminə sorğu verilmədən təsdiq edilir.

Hərbi qeydiyyatın aparılması Azərbaycan Respublikasının SHXÇDX tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

## Müsabiqənin keçirilməsi

**1.** İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində (V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar istisna olmaqla) əvvəlcə abituriyentlərin, bundan sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılır. **V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən ixtisaslar üzrə müsabiqə isə abituriyentlər və subbakalavrlar arasında eyni vaxtda aparılır. Eyni yerə iddia edən abituriyent və subbakalavrın qabiliyyət imtahanı üzrə yekun balı bərabər olarsa, bu zaman üstünlük abituriyentə verilir.** Yerləşdirilmə elektron ixtisas seçimi ərizəsində qeyd olunan ixtisasların ardıcıllığı nəzərə alınmaqla həyata keçirilir.

Eyni bir yerə iddia edən iki və daha artıq subbakalavrı fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

- *Orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);*
- *Təhsil haqqında sənədə (attestata) tədris dili, ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası (AYQƏO).*

**2.** Qəbul imtahanında iştirak edən subbakalavr öz istəyindən asılı olaraq, həm imtahanda topladığı bal ilə **abituriyent** kimi ümumi qaydada, həm də **subbakalavr** kimi qəbul imtahanında iştirak etmədən orta ixtisas təhsili pilləsi və ya yüksək texniki peşə təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə müsabiqədə iştirak edə bilər.

**Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin göstərdiyi xidmətlərin haqqı barədə məlumat aşağıdakı kimi müəyyən edilmişdir:**

| Xidmətlərin adı | Ölçü vahidi | Tarif | Azərbaycan Respublikasının vətəndaşları üçün güzəştli tarif* |
|---|---|---|---|
| Ali təhsil müəssisələrinin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə qəbul imtahanının **I mərhələsi** | 1 iştirak üçün | 45 | 20 |
| Ali təhsil müəssisələrinin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə qəbul imtahanının **II mərhələsi** | 1 iştirak üçün | 50 | 40 |
| Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən (o cümlədən Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq") ixtisaslarına tələbə qəbulu ilə bağlı qabiliyyət imtahanı | 1 iştirak üçün | 40 | 30 |
| Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə test imtahanı | 1 iştirak üçün | 30 | 10 |
| Ümumi təhsil müəssisələrinin cari il məzunlarının əlavə olaraq verdikləri **Azərbaycan dili** və ya **rus dili fənnindən imtahan** | 1 iştirak üçün | 30 | 10 |
| Ümumi təhsil müəssisələrinin cari il məzunlarının qəbul imtahanında əlavə olaraq verdikləri **xarici dil fənni imtahanı** | 1 iştirak üçün | 30 | 10 |
| **İnformatika** fənni üzrə imtahan | 1 iştirak üçün | 30 | 10 |
| **Coğrafiya** fənni üzrə imtahan | 1 iştirak üçün | 30 | 10 |

* Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2022-ci il tarixli 270 nömrəli qərarına əsasən Azərbaycan Respublikasının vətəndaşları üçün edilən güzəştlər nəzərə alınmaqla müəyyənləşmiş **güzəştli tarif**.

**QEYD 1: Cari ildə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanının II mərhələsinin 1-ci cəhdində iştirak edən abituriyentlər üçün 2-ci cəhd imtahanı həmin abituriyentlərin hesabına həyata keçirilir.**

**QEYD 2: "Şəxsi kabinet"inizin hesabına vəsait köçürərkən iştirak edəcəyiniz imtahanların və bu imtahanlar üçün müəyyən edilmiş qiymətləri nəzərə alın. "Şəxsi kabinet"inizin hesabına köçürdüyünüz istifadə edilməmiş vəsait qəbul kampaniyası bitdikdən sonra müraciətiniz əsasında təqdim etdiyiniz bank hesabınıza qaytarıla bilər, digər şəxsi kabinetlərə köçürülə bilər və ya digər imtahanlara qeydiyyat zamanı istifadə edilə bilər.**

**QEYD 3: Ali təhsil və orta ixtisas təhsili müəssisələrini bitirən bütün abituriyentlər üçün ali təhsil müəssisələrinə qəbul imtahanları həmin abituriyentlərin hesabına həyata keçirilir.**

**QEYD 4: Azərbaycan Respublikasının vətəndaşı olmayan abituriyentlər üçün qəbul imtahanının I və II mərhələsi (bütün cəhdlər üzrə) onların öz hesabına həyata keçirilir (Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanlarında iştirakı istisna olmaqla).**